# Sülhməramlıların Qarabağı tərk etməsi tezliklə yekunlaşacaq

## Bu, Azərbaycan və Rusiyanın münasibətlərindəki qarşılıqlı anlaşmanın və strateji tərəfdaşlıq səviyyəsinin göstəricisidir

Dünən Xocalıda Rusiya Sülhməramlı Kontingentinin Azərbaycanın Qarabağ bölgəsindən çıxarılmasına həsr olunmuş mərasim keçirilib. Tədbirdə Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin yüksəkrütbəli hərbçiləri iştirak ediblər.

Hələ ötən il oktyabrın 4-də Rusiya xarici işlər nazirliyinin rəsmisi Mariya Zaxarova qeyd etmişdi ki, Rusiya sülhməramlılarının Qarabağda qalma müddəti Azərbaycanla birgə razılaşdırılaraq müəyyən ediləcək. Həmin çıxışdan o qədər də çox vaxt keçmədən Azərbaycan və Rusiya dövlət başçılarının əldə etdiyi razılığa əsasən, sülhməramlı missiyanın vaxtından əvvəl fəaliyyətini dayandırmasına qərar verildi. Əlbəttə ki, bu, Azərbaycan-Rusiya münasibətlərinə heç bir mənfi təsir etmir, əksinə, münasibətlərin daha da gücləndirilməsini şərtləndirir. Çünki sülhməramlıların ərazilərimizdən çıxması iki ölkə rəhbərinin qərarına əsasən həyata keçirilir, burada heç bir hərbi komponent yoxdur. Bununla da antiazərbaycançı şəbəkənin cəfəng fikirləri, uydurma iddiaları da iflasa uğradı. "Sapı özümüzdən olan baltalar" 3 ildir Şanlı Zəfərimizdən deyil, sülhməramlıların heç vaxt Azərbaycan ərazilərindən çıxmayacaqlarından danışaraq ara qarışdırmaq istəyirdilər. Amma baş verən proseslər bir daha onların mənfur planlarını alt-üst etdi.

Dünən Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov jurnalistlərə açıqlamasında bildirib ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına cavab olaraq başladılan genişmiqyaslı əks-həmlə əməliyyatı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün müddətində uğurla başa çatdırılıb. Vətən müharibəsindən sonra Azərbaycan Respublikası, Rusiya Federasiyası və Ermənistan Respublikasının liderləri arasında imzalanmış üçtərəfli Bəyanatın müvafiq bəndinə uyğun olaraq Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları fəaliyyətə başlamışdı. 2023-cü ilin sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra artıq bu missiyanın da fəaliyyətinə ehtiyac qalmayıb: "Sülhməramlı kontingentin vaxtından əvvəl missiyasının başa çatdırılması və Azərbaycan ərazisini tərk etməsindən dərhal sonra Müdafiə Nazirliyinin müvafiq göstərişinə uyğun olaraq sülhməramlı kontingentin silah və texnikasının, şəxsi heyətinin Azərbaycan ərazisindən çıxarılması üçün zəruri texniki və logistik dəstək göstərilir". Anar Eyvazov bildirib ki, Rusiya sülhməramlılarının Azərbaycan ərazisini tərk etməsi prosesi hazırda davam edir və yaxın vaxtlarda yekunlaşacaq.

Qeyd edək ki, Rusiya kontingenti bir motoatıcı briqadadan ibarət idi və bu briqadanın tabeliyində iki tabor mövcud olub. Bu taborlardan birinin qərərgahı Ağdərədə, ikincisininki isə Xankəndiyə yaxın ərazidə yerləşmişdi. Sülhməramlıların tərkibinə gəlincə, burada 1960 rusiyalı hərbçi fəaliyyət göstərirdi. Onların kiçik və iriçaplı silahları, 90 zirehli transportyor, 380 ədəd avtomobil və xüsusi texnikası var idi. Onların hamısı ərazilərimizdən çıxarılır.

Ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra artıq sülhməramlıların hansısa fəaliyyətinə ehtiyac qalmayıb. Azərbaycan heç vaxt Rusiyaya "təcili regionu tərk et" kimi bəyanatlar da verməyib. Onların 2025-ci ilin noyabrına qədər Azərbaycan ərazisində qalma imkanları mövcud idi. Rusiya hərbçilərinin vaxtından əvvəl getməsi Moskva və Bakının ən yüksək səviyyədə siyasi razılığa gəldiyini bir daha göstərdi. Bu, artıq öz təsdiqini tapıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 16 may, №101.- S.4.